CENTER OF ANALYSIS OF INTERNATIONAL RELATIONS

TƏHLİL

# Qarabağın bərpası Azərbaycanın iqtisadi inkişaf strategiyasında


## Yunis Qurbanov

## Fatimə Məhəmmədova

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az



İYUL 2026

# Qarabağın bərpası Azərbaycanın iqtisadi inkişaf strategiyasında

## Giriş

2020-ci ildə II Qarabağ müharibəsində əldə edilmiş qələbədən və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsindən sonrakı mərhələdə işğaldan azad olunan ərazilərdə yenidənqurma və bərpa işlərinin aparılması, onların milli iqtisadi sistemə inteqrasiyası qarşıda dayanan əsas strateji məsələlərdən biri olmuşdur. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması təkcə sosial və humanitar məsələ deyil, eyni zamanda ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

Azərbaycan hökuməti 2021-ci ildən etibarən azad edilmiş ərazilərin bərpasını dövlət investisiya siyasətinin prioritet istiqaməti elan etmişdir. Bu yöndə sənaye zonaları, kənd təsərrüfatı, nəqliyyat infrastrukturu, turizm və "ağıllı-şəhər kənd" layihələrinin həyata keçirilməsi üçün milyardlarla manat maliyyə vəsaiti ayrılmışdır. Bu proses regionun ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirməklə yanaşı, yeni iqtisadi məkanın formalaşmasına da xidmət edir.

Uzun illər işğal olunmuş ərazilərin iqtisadi potensialı istifadəsiz qalmışdır. Region su resurslarına, əlverişli kənd təsərrüfatı torpaqlarına, zəngin təbii ehtiyatlara, turizm imkanlarına və tranzit potensialına malikdir. Buna görə də Azərbaycanın qeyri-neft sektorunun inkişafına xidmət edən mühüm istiqamətlərindən biri Qarabağda iqtisadi sistemin inkişaf etdirilməsi hesab olunur.

Azərbaycanın "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən edilmiş mühüm məqsədlərdən biri rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşdırılması və regional inkişafın təmin edilməsidir. Bu məqsədlərin reallaşdırılması baxımından Qarabağ regionunun bərpası böyük önəm kəsb edir.

## Qarabağın bərpasında dövlət investisiya siyasəti

Qarabağın bərpası üçün ayrılan maliyyə vəsaitlərinin həcmi Azərbaycanın müstəqillik illərində həyata keçirdiyi ən böyük dövlət investisiya layihələrindən biri olmuşdur. 2021-2025-ci illərdə Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait ayrılmışdır. 2024-cü ildə işğaldan azad edilmiş torpaqların bərpası üçün ayrılan vəsait təxminən 4,828 milyard manat

olmuşdur. 2025-ci ildə bu vəsait 4,4657 milyard manat təşkil etmişdir. Ayrılan vəsaitin 84,7%-i, yəni 3,7819 milyard manatı xüsusi olaraq bu bölgələrdə infrastrukturun yenidən qurulması və bərpası üçün ayrılmışdır. Bu vəsait əsasən infrastrukturun qurulmasına, yaşayış məntəqələrinin tikilməsi və bərpasına, nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə yönəldilmişdir. Ümumilikdə, 2025-ci ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 56-sı nəqliyyat sektoru, 78-i su idarəçiliyi və meliorasiya sahəsi, 7-si müdafiə və hüquqi-mühafizə sahəsi, 177-si sosial sektor, 19-u enerji sahəsi və 48-i digər sahələrdə olmaqla, 385 yenidənqurma və inkişaf layihəsi həyata keçirilmişdir.

Qarabağın bərpasında başlıca istiqamətlərdən biri məhz infrastrukturun yenidən qurulmasıdır. Bu, yol-nəqliyyat, hava limanları, enerji və su-kommunikasiya layihələrini əhatə edir. İşğaldan azad olunduqdan sonra 2021-ci ilin oktyabrın 26-da Füzuli Hava Limanı, 2022-ci il oktyabrın 22-də Zəngilan Hava Limanı, 2025-ci il mayın 28-də Laçın Hava Limanı açılmışdır. Həmçinin, 2022-2025-ci illərdə Ağdam-Şuşa avtomobil yolunun birinci mərhələsi – Əhmədbəyli-Füzuli-Şuşa yolu tamamlanıb. Eyni zamanda, Bərdə-Ağdam dəmir yolu artıq istifadəyə verilib və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd dəmir yol xətlərinin tikintisi davam etdirilir.

Ümumilikdə, bu infrastruktur layihələri Qarabağın nəqliyyat bağlantısını gücləndirir və Zəngəzur dəhlizi çərçivəsində Cənub-Qərb tranzitinə inteqrasiyanı gücləndirir. Qarabağın iqtisadi inkişaf prosesində xüsusi əhəmiyyət kəsb edən layihələrdən biri məhz Zəngəzur dəhlizidir. Dəhlizin reallaşdırılması Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə yanaşı, Türkiyə, Avropa və Mərkəzi Asiya arasında yeni nəqliyyat əlaqələrinin formalaşmasına imkan yaradacaqdır. Zəngəzur dəhlizi logistika xərclərini və yükdaşımaların müddətini azaltmaqla, Azərbaycanın tranzit potensialını artıracaq, regional ticarətin genişlənməsinə və xarici investisiyaların cəlb edilməsinə müsbət təsir göstərəcəkdir. Bu layihə Azərbaycanın geoiqtisadi mövqeyini gücləndirəcək və Avrasiya nəqliyyat sistemində strateji əhəmiyyətini artıracaqdır.

**Qarabağın iqtisadi inkişafında yaşıl enerji və sənaye siyasəti**

Azad olunmuş ərazilərin enerji potensialı böyükdür. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru “ Yaşıl Enerji Zonası” elan etmişdir. Bu konsepsiya regionun bərpasında innovativ və dayanıqlı inkişaf modelinin tətbiqini nəzərdə tutur. Belə ki, Azərbaycanda su ehtiyatlarının 25%-ə qədərini Qarabağ və Şərqi Zəngəzurdakı resurslar təşkil edir. Bu da həmin ərazilərdə su-elektrik stansiyalarının tikilməsi üçün şərait yaradır. İndiyədək sözügedən ərazilərdə ümumi

gücü 270 MVt olan 32 su-elektrik stansiyası istismara verilib. Laçın, Kəlbəcər və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə olan "Güləbrid" SES, "Suqovuşan-1" KSES, "Suqovuşan-2" KSES, "Kəlbəcər-1" KSES su-elektrik stansiyaları istismara verilmişdir. Bundan əlavə, "Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Meydan" kiçik su-elektrik stansiyaları istismara verilib, "Aşağı Vəng" və "Yuxarı Vəng", "Zar", "Nadirxanlı" su-elektrik stansiyalarının istismara verilməsi planlaşdırılır.

Qarabağın iqtisadi inkişafında sənaye zonalarının yaradılması böyük önəm daşıyır. İşğaldan azad edilmiş zonaların iqtisadi reinteqrasiyasının əsas istiqamətlərindən biri də sənayenin inkişaf etdirilməsi və özəl investisiyaların cəlb olunmasıdır. Bu çərçivədə Ağdam Sənaye Parkı, Araz Vadisi İqtisadi Zonası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli 1347 nömrəli Fərmanı ilə yaradılan Ağdam Sənaye Parkı işğaldan azad edilmiş ərazilərdə fəaliyyətə başlayan ilk sənaye parkı olmuşdur. Ağdam Sənaye Parkında hazırda 32 rezident, 5 qeyri-rezident fəaliyyət göstərir, 1000-ə yaxın daimi iş yerinin yaradılması təmin olunmuşdur. Sənaye parkında tikinti materiallarının, elektrik avadanlıqlarının və digər sənaye məhsullarının istehsalı həyata keçirilir.

Cəbrayıl rayonunda yerləşən Araz Vadisi İqtisadi Zonası Qarabağın iqtisadi inkişaf strategiyasında mühüm yer tutan digər layihədir. Əsasən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsinə yaxın mövqedə yerləşməsi ilə seçilən Araz Vadisi İqtisadi Zonasının gələcəkdə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə logistika və istehsal mərkəzi kimi əhəmiyyəti daha da artacaqdır. Parkın coğrafi üstünlükləri xarici investorların marağını cəlb etməklə yanaşı, Azərbaycanın tranzit potensialına da böyük təsir edir. Regionda bu müəssisələrin fəaliyyəti sənaye potensialının formalaşmasına və qeyri-neft sahəsinin inkişafına töhfə verir.

**Qarabağın regional inkişaf və inteqrasiyası**

Qarabağın iqtisadi inkişafı təkcə fiziki infrastrukturun qurulması ilə kifayətlənmir. Eyni zamanda insan kapitalının formalaşdırılması da regionun dayanıqlı inkişafı üçün əsas şərtlərdən biridir. "Böyük Qayıdış üzrə 1-ci Dövlət Proqramı" məhz bunun üçün nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş ərazilərdə bərpa, ərazilərə əhalinin təhlükəsiz və könüllü şəkildə qayıdışının həyata keçirilməsi qarşıda dayanan əsas prioritetlərdəndir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış üzrə 1-ci Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram çərçivəsində azad edilmiş ərazilərin minalardan təmizlənməsi, yaşayış məntəqələrinin yenidən qurulması, məktəblər, xəstəxanalar, xidmət

müəssisələrinin tikilməsi, əhalinin mərhələli şəkildə geri qayıdışının həyata keçirilməsi nəzərdə tutulur.

Böyük Qayıdış Proqramı təkcə sosial xarakterli nəhəng layihə kimi deyil, həm də ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyasında mühüm tərkib hissəsi kimi çıxış edir. Proqram çərçivəsində cəlb olunan investisiyalar nəqliyyat, energetika, tikinti, sənaye, kənd təsərrüfatı və xidmət sektorlarının inkişafına fokuslanır. Bu investisiyalar iqtisadiyyatda böyük təsir yaradaraq yeni müəssisələrin yaranmasına, məşğulluğun artmasına, eyni zamanda özəl sektorun inkişafına təkan verir. Nəticə etibarı ilə, hazırda azad edilmiş ərazilərdə 48 mindən çox insan yaşayır və işləyir. Əhalinin geri qayıtması bu ərazilərdə kiçik sahibkarlığın, kənd təsərrüfatının, sənaye sahələrinin inkişafına müsbət təsir edir. Bu proses regionda iqtisadi aktivliyin uzunmüddətli əsaslarını formalaşdırır.

Qarabağ regionunun zəngin mədəni və ekoturizm potensialı var. Qarabağda turizm və mədəniyyəti dirçəltmək də iqtisadi inkişafa təsir edəcək amillərdən biri sayılır. İşğaldan azad edilmiş ərazilər zəngin tarixi-mədəni irsi, əlverişli coğrafi mövqeyi və təbiətinə görə ölkənin gələcək turizm mərkəzlərindən biri hesab olunur. Qarabağın turizm potensialı ilk növbədə Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Ağdam rayonlarının zəngin tarixi, memarlıq və təbii irsi ilə bağlıdır. Xüsusilə Şuşa şəhəri Azərbaycanın və Qarabağın mədəniyyəti üçün xüsusi önəm kəsb edir.

Bu yöndə atılan böyük addımlardan biri də Şuşa şəhərinin 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi olmuşdur. Bundan əlavə, 2023-cü ildə Şuşa şəhəri Türk dünyasının mədəniyyət paytaxtı, 2024-cü ildə isə İslam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Şuşada keçirilən beynəlxalq musiqi festivalları, həmçinin "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" regionun mədəni həyatının bərpasına, eyni zamanda turizmin inkişafına böyük töhfə verir. Dövlət tərəfindən həyata keçirilən bərpa layihələri Qarabağın gələcəkdə Cənubi Qafqazın mühüm mədəni və turizm mərkəzlərindən birinə çevrilməsində böyük rol oynayır.

Qarabağın bərpası iqtisadi imkanlar yaratmaqla yanaşı, müəyyən çətinliklərlə də müşayiət olunur. Ən ciddi problemlərdən biri işğal nəticəsində ərazidə yerləşən yaşayış məntəqələrinin, enerji və nəqliyyat infrastrukturlarının dağıdılmasıdır. Buna görə də bərpa prosesində uzunmüddətli planlaşdırılma və böyük maliyyə resursları tələb olunur.

Digər mühüm məsələ mina təhlükəsidir. İşğaldan azad edilmiş ərazilərdə geniş ərazilərin minalarla çirkləndirilməsi tikinti, investisiya və kənd təsərrüfatı

layihələrinin həyata keçirilməsini ləngidir. Minaların təmizlənməsi həm böyük maliyyə resursu tələb edir, həm də Böyük Qayıdış prosesinin sürətinə təsir göstərir.

Qarşıdakı dövrdə regionun inkişaf perspektivləri kifayət qədər genişdir. Regionun “Yaşıl Enerji Zonası” kimi inkişaf etdirilməsi, aqrar istehsalın bərpası, sənaye paklarının genişləndirilməsi, turizm potensialının inkişaf etdirilməsi və Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Qarabağın ölkənin yeni iqtisadi inkişaf regionlarından birinə çevrilməsinə şərait yaradacaqdır. Bundan başqa, rəqəmsal texnologiyaların tətbiqi, “Ağıllı kənd”, “Ağıllı şəhər” layihələrinin genişləndirilməsi regionun dayanıqlı inkişafının formalaşdırılmasında vacib rol oynayacaqdır.

**Nəticə**

Azərbaycanın müasir iqtisadi inkişaf konsepsiyasının mühüm istiqamətlərindən biri Qarabağın bərpasıdır. Bu proses təkcə işğaldan zərər çəkmiş ərazilərin yenidən qurulmasını deyil, eyni zamanda ölkənin iqtisadi inkişaf modelinin yeni mərhələyə keçidini nəzərdə tutur. İcra olunan layihələr göstərir ki, regionun dinc həyata dönüşünün təmin olunması ilə yanaşı, regionda iqtisadi inteqrasiya da dərinləşmişdir.

Ölkənin qeyri-neft sektorunun inkişafına, regional rəqabət qabiliyyətinin inkişafına və dayanıqlı iqtisadi artımın təmin edilməsinə Qarabağın milli iqtisadi sistemə inteqrasiyası mühüm töhfə verəcəkdir. Nəticə etibarı ilə, Qarabağın bərpası Azərbaycanın 2030-cu ilə qədər qarşıya qoyduğu sosial-iqtisadi inkişaf prioritetlərinin reallaşdırılmasında böyük əhəmiyyət kəsb edəcəkdir.

**Müəlliflər:**

**Yunis Qurbanov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

**Fatimə Məhəmmədova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində təcrübəçi**